# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

13 (86) 26 iyul 2017-ci il

İctimai-siyasi qəzet


## İlham Əliyev jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib



Prezident İlham Əliyev iyulun 20-də jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dövlətimizin başçısına məlumat verdilər ki, jurnalistlər üçün inşa edilən ikinci binada 255 mənzil var. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 bir otaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil var. Binanın həyətində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülüb.

Sonra Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin İnformasiya Proqramları Studiyasının direktoru Mehriban Məmmədova və Mətbuat Şurasının sədri Əflatun Amaşov media nümayəndələrinə göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etdilər.

Daha sonra Prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi və mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, mənzillərin hamısı müasir tələblər səviyyəsində təmir edilib, sürətli internet, İPTV və fərdi isitmə sistemləri ilə təchiz olunub.

Müstəqil Azərbaycanda milli mətbuatın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın tələbi ilə o zaman hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ölkənin üzləşdiyi ağır ictimai-siyasi şəraitdə, iqtisadiyyatın iflic vəziyyətə düşdüyü bir dövrdə söz və mətbuat azadlığının təmin edilməsi, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxladı. 2003-cü ildən isə bu proses yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası əsasında mühüm layihələr icra edildi. Bu gün Azərbaycanda bütün azadlıqlar, o cümlədən mətbuat, söz və fikir azadlıqları tam təmin edilib. Azərbaycanda genişzolaqlı internet sərbəst şəkildə fəaliyyət göstərir. Ölkəmizdə KİV nümayəndələrinin rahat və təhlükəsiz fəaliyyət göstərmələri üçün bütün şərait var. Son illərdə isə jurnalistlərin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra edilib. Belə ki, 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna ilkin olaraq 5 milyon manat vəsait ayrıldı. Ötən müddətdə həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olundu və bütün mənzillər yüksək səviyyədə təmir edildi. Bu binanın tikintisinə və ətraf ərazidə abadlıq işlərinin aparılmasına 22 milyon manatdan artıq vəsait sərf olundu.

Azərbaycan dünyada bəlkə də yeganə ölkədir ki, kütləvi informasiya vasitələri nümayəndələri üçün dövlət tərəfindən pulsuz olaraq yaşayış binaları inşa olunur və onlara verilir. Bu, bir daha sübut edir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Ən əsası isə odur ki, bu tədbirlər ardıcıl xarakter daşıyır.

Sonra Prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək üçüncü yaşayış binasının təməlini qoydu.

Dövlətimizin başçısı binanın texniki-iqtisadi göstəricilərini əks etdirən stendə baxdı.

Diqqətə çatdırıldı ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən inşa ediləcək bu binada da 255 mənzil olacaq. Beləliklə, 2010-2017-ci illərdə tikilib istifadəyə verilmiş iki və hazırda təməli qoyulan üçüncü binada mənzillərin ümumi sayı 665-ə çatacaq.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan veteranları Ermənistan ordusunun növbəti qanlı cinayəti ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Ermənistan ordusu tərəfindən Füzuli rayonunun Alxanlı kəndində dinc sakinlərin öldürülməsi ilə bağlı bəyanat yayıb.

Bəyanatda deyilir:

"2017-ci il iyulun 4-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndi və digər istiqamətlərdə törətdiyi aramsız təxribatlar nəticəsində kənd sakinləri Sahibə Quliyevanın və onun 2 yaşlı nəvəsi Zəhra Quliyevanın həlak olmaları, Sərvinaz Quliyevanın isə ağır yaralanması ölkə veteranlarının da haqlı qəzəbinə və ciddi narahatlığına səbəb olub.

Dərin təəssüflə bildiririk ki, Ermənistanın beynəlxalq hüquqa məhəl qoymadan cəbhə xəttində müntəzəm surətdə gərginlik yaratması, xüsusilə dinc sakinləri hədəfə almaq siyasəti illərdir davam edir. Təcavüzkar ölkənin hazırkı hərbi-siyasi rəhbərliyinin birbaşa diktəsi, hətta iştirakı ilə reallaşdırılan bu siyasətin acı nəticələri arasında Azərbaycanın Xocalı şəhərində törədilən soyqırımı, Kərkicahan, Malıbəyli kimi kəndlərdə həyata keçirilən qanlı qırğınlar, işğal edilmiş 20 faizdən artıq ərazimiz vardır. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə, nüfuzlu beynəlxalq təşkilatların çoxsaylı qərar və bəyanatlarına, dünya birliyinin israrlı çağırışlarına baxmayaraq, həmin ərazilər 25 ildən artıqdır ki, işğal altında saxlanılır. Lakin cəbhə xəttində törədilən qanlı təxribatlara görə məsuliyyət daşıyan Ermənistan rəhbərliyi utanmadan Azərbaycan tərəfini günahlandırmaqdan belə çəkinmir, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır.

Biz veteranlar ordusu XXI əsrdə ərazilərin qəsb olunmasına və təcavüzkarlığa əsaslanan siyasətə qəti etiraz edir, Azərbaycan torpaqlarının beynəlxalq səviyyəli sənədlərdə göstərildiyi kimi qeyd-şərtsiz işğaldan azad olunmasını tələb edirik. İkinci Dünya müharibəsində nasizm üzərində Qələbənin əldə olunmasında həyatlarını və sağlamlıqlarını əsirgəməyən insanların və onların varislərinin öz torpağında azad və firavan yaşamaq hüququna bütün dünya və beynəlxalq təşkilatlar hörmətlə, anlayışla yanaşmalıdırlar. Bu hüququn təmin olunması yollarından biri də bu gün Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərində işğalçı Ermənistanın törətdiyi təxribatların qarşısının alınmasına və işğalın aradan qaldırılmasına dünya birliyinin və müvafiq beynəlxalq təşkilatların göstərəcəyi təpki, obyektiv və birmənalı münasibətdir.

Azərbaycan veteranları son günlər cəbhə xəttində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlar nəticəsində dinc sakinlərin, xüsusilə körpə uşaqların və qadınların həlak olmasını yolverilməz hesab edir, ATƏT-i və bütün beynəlxalq ictimaiyyəti, o cümlədən qanlı müharibələrdən keçmiş bütün ölkələrin veteranlarını bu cinayətləri qətiyyətlə pisləməyə və işğalçı qoşunların Azərbaycan ərazilərindən dərhal çıxarılmasını Ermənistandan tələb etməyə çağırır".

AZƏRBAYCAN
VETERANI

# Belqradda "Faşizmsiz dünya uğrunda mübarizənin əsas metodları" mövzusunda beynəlxalq konfrans keçirilib



Bosniya və Herseqovinanın paytaxtı Belqradda "Faşizmsiz dünya uğrunda mübarizənin əsas metodları" mövzusunda beynəlxalq konfransı təşkil edilib. Tarixi, mədəni irsin qorunması və saxlanılması missiyasını başlıca fəaliyyət məqsədi sayan "Qələbənin varisləri" beynəlxalq birliyinin təşkil etdiyi konfrans İkinci Dünya müharibəsinin 75 illiyinə həsr olunub.

20-dən çox ölkədən yüksək vəzifəli nümayəndə heyətlərinin, o cümlədən iki ölkənin prezidentinin qatıldığı konfransda Azərbaycanı Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təmsil edib.

Tədbirdə "Veteranların müdrikliyi - müharibə və faşizmə sipərdir" adlı məruzə ilə çıxış edən C.Xəlilov Azərbaycanın faşizmə qarşı mübarizədə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, İkinci



Dünya müharibəsi xalqımızın şanlı tarixinin bir parçasıdır. Həmin müharibədə Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük fədakarlıqlar, əvəzsiz xidmətlər göstərib. Azərbaycan neftinin qələbədəki payı xüsusilə böyük olub. Bu gün həmin Qələbənin canlı yaddaşı veteranlardır. Əbədi fəxrimiz olan veteranlar ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunublar.



C.Xəlilov qonaqların diqqətini Ermənistanın Azərbaycanın ərazi bütövlüyünün pozmasına, 25 ilə yaxın müddətdə BMT-nin qəbul etdiyi dörd qətnamənin bu ölkə tərəfindən bu günədək icra olunmamasına yönəldib. O, bu faktı faşizmin dirçəldilməsinin bariz nümunəsi kimi dəyərləndirib, tarix beşiyimiz olan Qarabağın hələ də işğal altında saxlanmasını və milli-mədəni sərvətlərimizin talan olunmasını böyük təəssüf hissi ilə diqqətə çatdırıb. Eyni zamanda, Ermənistanda nasizmə xidmət edənlərə son illərdə abidə ucaldılmasını ciddi tənqid edərək deyib: "Biz nasistlərlə əlbir olanların qəhrəmanlaşdırılmasının əleyhinə çıxmalıyıq. Artıq bir neçə ildir ki, müasir erməni faşistləri öz sələflərinin, İkinci Dünya müharibəsində alman faşizminə xidmət göstərmiş cəlladlar, erməni qisasçı legionlarına rəhbərlik etmiş Qaregin Njde və general Dronun genişmiqyaslı təbliğatı ilə məşğul olurlar. Ermənilər bədnam niyyətlərinin həyata keçirilməsində hər vasitəyə əl atır, hətta qonşu ölkələrin mətbuatının imkanlarından istifadə etməkdən belə çəkinmirlər. Vaxtılə Qarabağda və Zəngəzurda azərbaycanlılara qarşı qırğınlar törətmiş Njde kimi faşist başkəsənlərinin bəraətinə xidmət edən bu təbliğatda o dərəcədə ifrata varılır ki, cəlladlar qəhrəman səviyyəsinə yüksəldilir. Ermənilərin bəşəriyyətin məhvinə çalışan, milyonların cəlladları olanlara abidə ucaltmaları hiddətləndiricidir. İkinci Dünya müharibəsi tarixinə adları nasistlərlə birgə kütləvi qırğınların törədiciləri sırasına yazılmış bu qaniçənlər faşizmə xidmət etdikləri üçün qınaq obyekti olmalı, lənətlə xatırlanmalıdırlar".

Respublika Veteranlar Təşkilatının sədr müavini Azərbaycanda heç zaman dini, irqi ayrı-seçkiliyə yol verilmədiyini, xalqımızın tolerantlığının dünya tərəfindən qəbul edilən reallıq olduğunu əminliklə bildirib. O, Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində qeyd olunan ənənələrin dövlət siyasəti səviyyəsinə qaldırılmasından və həyat tərzinə çevrilməsindən bəhs edərək konfrans iştirakçılarını bunun bariz nümunələri ilə tanış edib.

Azərbaycanda yaşayan bütün xalqların hüquq bərabərliyinin təmin edilməsi, müxtəlif dinlərə etiqad edən insanların etnik-mədəni və dini dəyərlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində görülən tədbirləri qeyd edən natiq müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrinin bir arada harmonik mövcudluğunun dünya üçün nümunə olduğunu vurğulayıb.

Konfransda digər ölkə nümayəndələrinin də çıxışları dinlənilib, faşizmsiz dünya uğrunda mübarizənin metodlarından bəhs olunub.

# Azərbaycan və Rusiya prezidentlərinin görüşü ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətlə davam etdiyini göstərir

İyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü iki ölkə arasında əməkdaşlığın daim yüksələn xətt üzrə davam etdiyini göstərir. Bu görüş xüsusilə son dövrlər Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin inkişafında guya problemlərin olması ilə bağlı bəzi məkrli qüvvələrin məqsədli şəkildə yaydıqları fikirlərin əsassızlığını bir daha təsdiqlədi.

Bu fikirləri Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov AZƏRTAC -a müsahibəsində bildirib.

Azərbaycan Prezidentinin Rusiyaya səfərinin mühüm əhəmiyyət daşıdığını göstərən bir neçə amili qeyd edən C.Xəlilov deyib: "Bunlardan birincisi prezidentlərin regionda hazırda həqiqətən də, sadə olmayan vəziyyət və ondan çıxış yollarının tapılması, təhlükəsizliyin möhkəmləndirilməsi, eləcə də ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün birgə planların həyata keçirilməsi perspektivlərini müzakirə etmələridir".

Respublika Veteranlar Təşkilatının sədr müavini deyib ki, ikinci mühüm amil görüşdə beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi kontekstində Azərbaycan üçün prioritet olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin müzakirə olunmasıdır. Bu sırada, həmçinin Azərbaycan Prezidentinin Rusiya ilə münasibətlərin yüksək səviyyəsini, siyasi, ticari-iqtisadi, humanitar sahələrdə əməkdaşlığın fəal surətdə aparıldığını qeyd edərək, indiki görüşün bu sahədə yaxşı impuls olacağını bildirməsidir. Belə ki, xüsusilə iki ölkənin nəqliyyat və energetika sahələrində yaxşı əməkdaşlıq perspektivlərinə malik olduğunu vurğulayan Azərbaycan Prezidenti qarşılıqlı münasibətlərin həyatın praktiki olaraq bütün sahələrini əhatə etdiyini diqqətə çatdırıb.



"Nəhayət, Azərbaycan-Rusiya prezidentlərinin Soçi görüşü ölkələrimiz arasında münasibətlərə kölgə salmaq istəyən qüvvələrin məkrli plan və niyyətlərinin heç bir perspektivinin olmadığını, bütün bunların puç və mənasız olduğunu qəti şəkildə təsdiqlədi. Strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğundan xəbər verən belə görüşlərin iki ölkə arasında dostluq münasibətlərinin inkişafına mühüm təsir göstərdiyi şübhəsizdir. Məhz bu baxımdan dövlət başçıları strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər. Bəli, bu görüş bir daha göstərdi ki, xalqlarımızın və dövlətlərimizin iradəsini əks etdirən Azərbaycan-Rusiya münasibətləri sağlam məcrada inkişaf edir və yaxşı perspektivlərə malikdir", - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

AZƏRTAC

# Veteranların sağlamlığına xüsusi diqqət göstərilir



Respublika Veteranlar Təşkilatının əməkdaşları Mərdəkanda yerləşən Müharibə və Əmək Veteranları Respublika Xəstəxanasında oldular. Respublika Veteranlar Təşkilatının sədr müavini, e.o polkovnik Cəlil Xəlilov xəstəxananın baş həkimi Xuraman Zamanova ilə birlikdə xəstələri ziyarət etdi, onlara hansı səviyyədə tibbi xidmət göstərilməsi ilə tanış oldu.

Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova görüş zamanı xəstəxanada veteranlar üçün yaradılmış şəraitdən razılığını bildirdi. Digər veteranlar da xəstəxanada xüsusi diqqət və qayğıya ilə əhatə olunduqlarını bildirdilər.

Müharibə və Əmək Veteranları Respublika Xəstəxanasının baş həkimi Xuraman Zamanova xəstəxanada yaradılmış şərait haqqında qonaqlara ətraflı məlumat verdi. Bu müalicə ocağının veteranların sağlamlığının bərpa edilməsində əvəzsiz xidmətləri olduğunu bildirdi. O, gələcəkdə xəstəxananın fəaliyyətinin daha da yaxşılaşdırılacağına, maddi bazasının gücləndiriləcəyinə əminlik ifadə etdi.

Xəzər Rayon Veteranlar Təşkilatının sədri Nüsrət İbrahimov da öz növbəsində xəstəxana rəhbərliyinə minnətdarlığını bildirdi. Həmçinin Xəzər Rayon Veteranlar Təşkilatının iş otağının da xəstəxanada yerləşdiyini bildirdi.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov veteranlar adından Xəstəxananın kollektivinə təşəkkürünü çatdırdı. O, Təşkilatın Rəyasət heyətinin qərarı ilə Xuraman Zamanovanın "Veteran Həmrəyli" medalı ilə təltif edildiyini bildirdi və medalı sahibinə təqdim etdi.

Ülvi İbrahimli

# Milli Mətbuatın 142 illiyi ərəfəsində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında tədbir keçirilib

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Milli Mətbuatın 142 illiyi ərəfəsində - Milli Mətbuat və Jurnalistika Günü münasibəti ilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan sədr müavini, e.o polkovnik Cəlil Xəlilov ölkəmizin jurnalist ictimaiyyətini, Təşkilatın əməkdaşlıq etdiyi media qrumlarının nümayəndələrini və Respublika Veteranlar Təşkilatının mətbu orqanı olan "Azərbaycan Veteranı" qəzetinin əməkdaşlarını Milli Mətbuat və Jurnalistika Günü münasibətilə təbrik edib, onlara cansağlığı, məsuliyyətli və şərəfli işlərində yeni-yeni uğurlar arzulayıb. Natiq bu günün önəmindən danışaraq vurğulayıb ki: "Azərbaycan milli mətbuatının yaranmasında Həsən bəy Zərdabinin və onun yaratdığı "Əkinçi" qəzetinin müstəsna rolu və əhəmiyyəti vardır. Azərbaycanda mətbuat siyasəti "Azad söz azad cəmiyyətin təməl daşıdır" prinsipi əsas meyar kimi götürülməklə müəyyənləşmişdir. Bu gün ölkə rəhbərliyi jurnalistləri xüsusi qayğı ilə əhatə edir. Dövlət başçısı jurnalistlərin sosial-iqtisadi, mənzil-məişət problemlərinin həlli istiqamətində mütəmadi olaraq sərəncamlar verir, tapşırıq və göstərişlərini çatdırır. Bu il Milli Mətbuat Günü ərəfəsində jurnalistlər üçün 255 mənzilli binanın istifadəyə verilməsi bunun bariz nümunəsidir. Bu gün təməli qoyulan növbəti bina isə, yaxın illərdə jurnalistlərin ixtiyarına veriləcəkdir.

Tədbirin sonunda Respublika Veteranlar Təşkilatının İctimaiyyətlə əlaqələr və analitik informasiya bölməsinin rəhbəri və "Azərbaycan Veteranı" qəzetinin kollektivi Mətbuat Günü münasibətilə mükafatlandırılmışdır.

Səidə Abdullayeva

AZƏRBAYCAN VETERANI

# Veteranların sosial müdafiəsi daha da gücləndiriləcəkdir

Azərbaycanda bütün qəbildən olan veteranlar, xüsusilə müharibə əlilləri və veteranları yüksək dövlət qayğısı ilə əhatə edilmişlər. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin həyata keçirilməsində bütün dövlət orqanları və ictimai təşkilatlar əlaqəli şəkildə fəaliyyət göstərməklə, üzərlərinə düşən çox mühüm vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırlar.





Qeyd olunan istiqamətdə Respublika Veteranlar Təşkilatı ilə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının birgə qarşılıqlı fəaliyyəti xüsusi qeyd edilə bilər. Belə ki, son illər bu təşkilatlar arasındakı əməkdaşlıq əlaqələri daha da genişlənmiş, uğurlar xeyli artmışdır. Məhz bunun nəticəsidir ki, veteranların sosial problemlərinin həlli istiqamətində ciddi dönüş yaranmış, onların sağlamlığının bərpası üçün sanatoriya və istirahət evlərinə verilən güzəştli putyovkaların sayı artmışdır.

Dünən Respublika Veteranlar Təşkilatının və Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının rəhbərliyinin ilə birgə görüşündə veteranların sosial müdafiəsinin daha da gücləndirilməsi, xüsusi ilə 1941-1945-ci ilər Böyük Vətən Müharibəsi iştirakçılarının və kimsəsiz veteranların sosial problemlərinin operativ həlli məsələləri müzakirə olunmuşdur.

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, millət vəkili S.Mehbalıyev və Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik C.Xəlilov veteranların dövlət qayğısı ilə əhatə edilmələrini, onların ölkə Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olduqlarını bir daha vurğulamışlar.

Görüşün sonunda Həmkarlar İttifaqı fəallarına Respublika Veteranlar Təşkilatının təsis etdiyi "Veteranların Qayğıkeşi" diplomu, "Veteran Həmrəyliyi" və "General Səməd bəy Mehmandarov" yubiley medalları təqdim olunmuşdur.

# Sumqayıtda polis veteranlarının iştirakı ilə 250-dən çox cinayətin üstü açılıb

Ölkəmizdə polis veteranlarının təcrübəsindən, bilik və bacarıqlarından daha geniş və səmərəli istifadə edilir. Onların ictimai təhlükəsizliyin təminində, cinayətlərin profilaktikası və açılmasında, təqsirləndirilən şəxslərin axtarışı tədbirlərinin planlaşdırılmasında, şəxsi heyətin təlim-tərbiyəsində, peşəkarlıqlarının artırılmasında, əhali arasında hüquqi biliklərin təbliğində fəaliyyətləri güclənib.



Daxili İşlər Nazirliyindən AZƏRTAC–a bildirilib ki, Sumqayıt Şəhər Polis İdarəsinin Veteranlar Şurası Polis İdarəsinin şəxsi heyətli ilə sıx təmasda olur, gənc əməkdaşlarla mütəmadi görüşür, onlara öz məsləhətlərini və tövsiyələrini verirlər.

Belə ki, cari ilin 6 ayında veteranlar polis və şəhər Təhsil Şöbəsinin əməkdaşları ilə birlikdə şəhərin ümumtəhsil məktəblərində, liseylərdə və kolleclərdə gənclərin vətənpərvər ruhda böyümələri, zərərli vərdişlərə, narkomaniyaya və radikal dini qurumlara qoşulmalarının qarşısının alınması məqsədi ilə şagirdlərlə 43 görüş keçirib və maarifləndirici söhbətlər aparıblar.

Bu ilin birinci yarısında Sumqayıt Şəhər Polis İdarəsinin Veteranlar Şurasının üzvləri 253 cinayətin açılmasında yaxından iştirak ediblər. Səmərəli fəaliyyətlərinə görə veteranlardan bir neçəsi Sumqayıt şəhər və Polis İdarəsi rəhbərliyi tərəfindən mükafatlandırılıb.

AZƏRTAC

# Əliheydər Əsədovun 80 illik yubileyi keçirildi



Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində Cəlilabad rayon Cəlilabad Rayon Veteranlar Təşkilatının və Ağsaqqallar Şurasının sədri Əliheydər Əsədovun anadan olmasının 80 illik yubileyi münasibətilə tədbir keçirildi.

Tədbirdə Cəlilabad rayon icra hakimiyyətinin humanitar məsələlər üzrə müavini Dürdanə Əliyeva, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik akademiyasının professoru İbrahimxəlil İbrahimov, Milli Elmlər Akademiyasının



Kibernetika institutunun elmi işçisi Saməddin Kərəmov, Respublika Veteranlar Təşkilatının nümayəndəsi, polkovnik-leytinant Adil Babaşov, rayon polis şöbəsinin rəisi, polis polkovniki Mübariz Quliyev, rayon məhkəməsinin sədri Əliəjdər Ələkbər, rayon ağsaqqallarından Mirəzim İsayev, Mehman Quliyev, Hacıağa Heydərov, Sadıx Seydanov və başqaları çıxış edərək yubilyarı təbrik etdilər, ona Fəxri Fərman və qiymətli hədiyyələr verdilər.

Yubileyi keçirilən Əliheydər Əsədova Respublika Veteranlar Təşkilatının fəxri fərmani ilə, həmçinin"Rusiya Veteranlar İttifaqının 60 illiyi" medalı ilə də təltif olundu.

Tədbirin sonunda Cəlilabad Rayon Veteranlar Təşkilatının və Rayon Ağsaqqallar Şurasının sədri Əliheydər Əsədova anadan olmasının 80 illiyi münasibətilə düzənlənən tədbirin təşkilatçılarına öz təşəkkürünü bildirdi.

Ədalət Salman

# Əsl vətəndaş ömrü

***H.Əliyev adına Neft Emalı zavodunun akt zalında Azərbaycan Neft sənayesinin qocaman işçisi Azərbaycan Respublikasının əməkdar mühəndisi, SSRİ Neft emalı sənayesinin fəxri işçisi Kamil Əlisoltan oğlu Akimovun anadan olmasının 90 illiyinə və əmək fəaliyyətinin 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.***

Yubiley gecəsini giriş sözü ilə açan SOCAR-ın vitse prezidenti David Məmmədov, Kamil Akimovun keçdiyi maraqlı və şərəfli həyat yolu haqqında məlumat verdi, onun Respublikanın neft emalı sənayesinin inkişafında xüsusi rolundan danışdı.

Yubilyarın həyat və iş fəaliyyəti haqqında akademik Vaqif Abasov ətraflı danışdı. O bildirdi ki, 1970-ci illərdə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında Neft Emalı Sənayesi naziri işləmiş





K.Akimov Bakıda neft emalı zavodlarının yenidən qurulması, ekologiyanın təmizlənməsi sahəsində böyük işlər görmüşdür. K.Akimov uzun illər xarici ölkələrdə neftçixartma sənayesi üzrə çalışan sovet mütəxəssislərinin işinə rəhbərlik etmişdir. Kamil Akimovun əməyi yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Yubilyarı təbrik edən Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Prezidenti akademik Akif Əlizadə, SOCAR-ın birinci vitse prezidenti akademik Xoşbəxt Yusifzadə, Respublika Veteranlar Təşkilatı sədrinin müavini Cəlil Xəlilov, "EKOL" mühəndislik xidmətləri QSC-nin baş direktoru Ramil Əliyev və başqaları Kamil Akimovun Azərbaycanda neft sənayesinin inkişafında, bir neçə nəsil neftçi kadrların yetişməsində əməyindən və xidmətlərindən danışdılar. Respublika veteranar Təşkilatının Rəyasət heyəti adından Cəlil Xəlilov yubilyara "Veteran Həmrəyliyi" medalını təqdim etmişdir.

Sonda sənədli film nümayiş etdirilmişdir.

# "Min nəfərdən cəmi 200-ü döyüşdən sağ çıxdı"



Veteran kəşfiyyatçı Böyük Vətən müharibəsinin dəhşətlərini anladır: "Onlar Kerç boğazından keçərkən alman təyyarələrinin bombardmanına məruz qaldılar və gəminin bütün heyəti suya qərq oldu"

İkinci Dünya müharibəsi başlayandan bir il sonra faşist Almaniyasının lideri Adolf Hitler SSRİ-yə qarşı müharibənin qaçılmaz olduğunu bəyan etdi. Bundan sonra SSRİ-nin işğal edilməsi üçün hazırlanan "Barbarossa" adlı yeni planda müəyyən dəyişikliklər aparıldı və Hitler 17 iyun 1941-ci ildə SSRİ-yə qarşı 22 iyun tarixində müharibəyə başlamaq əmrini verdi. Beləliklə 22 iyun səhər saat 03:15-də "Barbarossa" əməliyyatına uyğun olaraq Alman qoşunları SSRİ ərazisinə soxuldu.

Müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız cəbhəyə yollanmaq üçün hərbi komissarlıqlara könüllü olaraq müraciət etdi. Avqust ayına qədər isə təxminən 123 min nəfər xalq qoşunu dəstələrinə yazıldı. Həmin vaxt Lənkəran Rayon Hərbi Komissarlığından 3725 nəfər yola salınıb. Qeyd edək ki, həmin dövrdə Lənkəran Hərbi Komissarlığından yola salınanlar Astara, Lerik və Masallı rayonundan olan vətəndaşlar olub.

Lənkərandan müharibəyə gedənlərdən biri də hazırda Lənkəran şəhəri Kələntərlilər küçəsində yaşayan, 93 yaşlı Bağırov Qurban Əliheydər oğlu olub. O, 23 iyun 1923-cü ildə Lənkəran şəhərində anadan olub. Lənkəran Pedaqoji Texnikumunu bitirəndən sonra, 1940-cı ildən Lənkəranın Göyşaban kəndində ibtidai sinif müəllimi işləməyə başlayıb.

"1941-ci il iyunun 22-si idi. Səhər tezdən hamı şəhərin mərkəzi meydanına yığışmışdı. Doğum günümə də bir gün qalmışdı. O vaxt şəhərdə bir radio var idi, ordan bütün xəbərləri eşidirdik. Və hamımız həyacan və hiddətlə faşist qoşunlarının vətənimizə soxulması xəbərini aldıq", - deyir Qurban baba.

Bütün cavanlar kimi, o da hərbi komissarlığa yollanır: "Amma ordan bildirdilər ki, mən müəllim işlədiyim üçün orduya aparmırlar. Nəysə, elə həmin əhval-ruhiyyə ilə qayıtdım işə. Amma 1942-ci ilin oktyabrında məni Hərbi komissarlıqdan çağırdılar. Mən gəlib evdə valideynlərimlə sağollaşıb getdim".

Əvvəlcə onları Biləcəriyə, oradan da Rusiyanın Oryol şəhərinə aparırlar: "Səhəri gün bizi orada qoşunlara böldülər. Mən kəşfiyyat rotasına düşdüm. Düzü əvvəlcə bərk qorxdum, çünki mən ora çatanda bizim qoşunlar Oryol istiqamətində hücuma keçdilər, özü də təxminən mindən yuxarı döyüşçü ilə. Amma faşistlərin möhkəm müqaviməti ilə üzləşdilər. Geri çəkiləndə isə xeyli itki verdilər". "200 nəfər adam sağ qalmışdı. Mən də bunu görüb qorxdum. Düzü, ölümdən elə də yox, amma döyüşdə özümü necə aparacağımdan qorxurdum. Həm də geri qayıdan yaralılar arasında qonşumuz Orucu da gördüm", - müsahibimiz danışır.

O, 1942-ci ildən 1944-cü ilin əvvəlinə kimi döyüşlərdə iştirak edib: "Biz yenidən toplandıq və faşistlərə qarşı hücuma keçdik. Bizim hissə Oryolu işğaldan azad edib Voronejə qədər irəlilədi və Voroneji də işğaldan azad etdik. Mən 1943-cü ilin sonunda rotamızla bərabər hücuma keçərkən, dekabr ayında bərk xəstələndim. Amma rota komandirimə bildirmək istəmirdim. Çox gizlətsəm də, axırda - 1944-cü ilin əvvəlində məni ciyərlərimdə pnevmaniya xəstəliyi ilə Penza şəhərinə hərbi hospitala müalicə olunmağa göndərdilər".

Penzada 3 ay müalicə olunduqdan sonra oun evə göndərirlər: "3 ay müddətinə istirahət etməyimi məsləhət gördülər. 3 ay bitdikdən dərhal sonra özüm yenidən yollandım Bakıya Respublika Hərbi Komissarlığına. Komissarlıqdan isə məni Bakıda hərbi hissələrdən birinə göndərdilər, orda artilleriya qoşunlarında bir müddət təlim keçəndən sonra məni Gürcüstan SSR-in Suxumi şəhərində yerləşən hərbi hissəyə göndərdilər".

Müharibənin sonuna kimi Suxumidə xidmət edir: "Özüm dəfələrlə cəbhəyə getmək istədiyimi komandirlərimə bildirsəm də, komandanlıq məni oradan heç bir yerə göndərmədi. 1945-ci ilin may ayında məni yenidən Azərbaycana göndərdilər - Ələt qəsəbəsindəki hərbi hissəyə. Üstündən 3-4 gün keçdi və müharibənin bitdiyi xəbərini eşitdik. O vaxtın qanunlarına əsasən, öncə müəllimləri və 50 yaşdan yuxarı döyüşçüləri ordudan tərxis edirdilər. Mən də müəllim olduğum üçün ordudan ilk tərxis olunanlardan oldum". Qurban dayı özü ilə bərabər orduya gedənləri də xatırlayır: "Mənimlə bərabər dostum Şahverdiyev Abbas və qardaşı



Şahverdiyev Cavad da müharibəyə getdi. Onlar Leninqrad cəbhəsinə göndərildilər. Lakin heç biri müharibədən sağ qayıtmadı. Daha sonra İmanqulu var idi. O da gəmi ilə Kerç boğazından keçərkən alman təyyarələrinin bombardmanına məruz qalır və gəminin heyəti ilə birgə batıb. Qonşumuz Səlimov Əliağa və qardaşı Səlimov Yəhya Rostov ətrafında gedən döyüşlərdə həlak olublar".

"Bircə bizim hərbi hissədə avtoqarajın rəisi Kiçikbazarlı Nəcəfqulu sağ qalanlardan oldu. Qalan heç kim yadımda deyil", - deyir...

Qeyd edək ki, 1941-45-ci illər Böyük Vətən Müharibəsində Lənkəran Hərbi Komissarlığından cəbhəyə gedən azərbaycanlılardan 2458 nəfəri həlak olub, 1294 nəfəri isə itkin düşüb.

Rahim Zakiroğlu

# Pirallahıda "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi altında tədbir keçirilib

Müdafiə Nazirliyi və Pirallahı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz!" devizi altında vətənpərvərlik tədbiri keçirilib.

Rayon ictimaiyyətinin, şəhid ailələrinin, müharibə veteranlarının və hərbi qulluqçuların iştirak etdikləri tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də bir neçə gün öncə Ermənistan silahlı bölmələrinin dinc əhaliyə qarşı növbəti təxribatı zamanı həlak olmuş Füzuli rayonunun Alxanlı kənd sakinləri on səkkiz aylıq Zəhranın və onun nənəsinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin zabiti Abdulla Qurbani şəhidlik və Vətən sevgisindən, xalqımızın qəhrəmanlıq ənənələrindən, hərbi şöhrət tariximizdən, ordu quruculuğundakı uğur və nailiyyətlərimizdən söhbət açıb. Döyüşlərdə canlarından keçən Vətən övladlarının əbədiyaşarlığından, müharibədə sağlamlıqlarını itirən igidlərimizin, şəhid ailələrinin dövlət səviyyəsində diqqət və qayğı ilə əhatə olunmalarından bəhs edilib.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivlərinin ifasında vətənpərvərlik mahnıları, hərbi marşlar səsləndirilib.

Milli Məclisin deputatı, Respublika Veteranlar Təşkilatının Rəyasət heyətinin üzvü, professor Xanhüseyn Kazımlı Müdafiə Nazirliyinin yerli icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə təşkil etdiyi tədbirlərin əhəmiyyətindən danışaraq, bir çox tədbirlərdə şəxsən iştirakından böyük qürur hissi keçirdiyini qeyd edib.

Pirallahı Rayon İcra Hakimiyyəti başçısının müavini Vəzir Səfixanov bu kimi tədbirlərin ordu ilə xalqın birliyinin daha da möhkəmlənməsinə xidmət etdiyini, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna rol oynadığını və Müdafiə Nazirliyi ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini bildirib.

Tədbir keçirilən gün iyirmi yaşı tamam olan, Lələtəpə uğrunda döyüşlərin ilk şəhidi Sarvan Mehrəliyevin (qardaşı Namiqlə birlikdə döyüşə atılıb) qısa, lakin mənalı ömür yolu xatırlanıb, onun aprel döyüşləri zamanı göstərdiyi igidliklər nəzərə çatdırılıb.

Şəhidin anası Xatirə xanım Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva ilə



görüşünü yada salıb, dövlətimizin başçısından və Müdafiə Nazirliyinin rəhbərliyindən həmişə qayğı gördüyünü deyib.

Əməkdar İncəsənət Xadimi A.Qurbaninin erməni vandalizminin qurbanı Zəhraya həsr etdiyi elegiya tədbir iştirakçılarında duyğulu anlar yaşatmaqla yanaşı, onların bu nahaq qanın yerdə qalmayacağına, günahsız insanların qisasının alınacağına, torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə inamını daha da artırıb.

Tədbirdə beynəlxalq təşkilatlardan Azərbaycanın dinc əhalisinə, o cümlədən uşaqlara, qocalara, qadınlara qarşı dəfələrlə insanlığa yaraşmayan vəhşiliklər etmiş təcavüzkar Ermənistana qarşı sərt sanksiyalar tətbiq etmələri tələb olunub.

Ermənistan tərəfindən məqsədyönlü şəkildə yenidən planlaşdırılan təxribatın qarşısının və Alxanlı kəndində həlak olan dinc sakinlərin qisasının Silahlı Qüvvələrimiz tərəfindən alınaraq düşmən hədəflərinə dəqiq atəş zərbələri endirilməsi barədə Müdafiə Nazirliyindən verilən xəbər iştirakçıların alqışlarına səbəb olub.

Tədbir "Biz gedirik Qarabağa!" adlı ədəbi-musiqili kompozisiya ilə başa çatıb.

# Oder çayını yaran azərbaycanlı: O, böyük bir sovet diviziyasını xilas etdi

1945-ci il yanvarın 24-ü. Sahildəki evlərdən birində baş serjant Məmmədov döyüş meydanında xilas etdiyi əsgər və zabitləri yerləşdirdikdən sonra faşistlər həmin yeri gülləbaran edirlər. Məmmədəli faşistlərin 40 əsgər və zabitini məhv edir.

Böyük Vətən Müharibəsinin bəşəriyyətə vurduğu yaralar hələ də sağalmayıb, yaddaşlardan silinməyib. İllər keçsə də, bu ölümdirim müharibəsi unudulmayacaq.

Keçmiş SSRİ-nin elə bir ucqar məkanı olmayıb ki, bu vahiməli və dəhşətli müharibə həmin yerlərə aclıq, səfalət, müsibət, ölüm və göz yaşları gətirməsin. O dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, yaşadığı yerindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi. Bir sözlə, İkinci Dünya Müharibəsi tarixdə xüsusi iz buraxıb.

Bu qələbədə Azərbaycan neftinin və azərbaycanlıların rolu danılmazdır. Azərbaycandan Böyük Vətən Müharibəsində iştirak edən on minlərlə döyüşçü faşistlərlə vuruşlarda rəşadət və qəhrəmanlıq nümunələri göstərdiklərinə görə SSRİ-nin yüksək adları, rütbələri, orden və medalları ilə təltif ediliblər.

Bunlardan biri də Sovet İttifaqı



Qəhrəmanı Məmmədəli Cəbrayıl oğlu Məmmədovdur. O, 1920-ci ildə Qax rayonun Baydarlı kəndində anadan olub. Uşaqlığını, ilk gənclik illərini də elə bu kənddə keçirmişdi. Şəki Pedeqoji Texnikumunu bitirdikdən sonra bir müddət müəllim işləmişdi.

1940-cı il oktyabr ayının 10-da Sovet Ordusu sıralarına əsgəri xidmətə çağrılmış M.Məmmədov, 1235-ci atıcı alayında sanitar təlimatçı kimi fəaliyyət göstərir. O, yaralı döyüşçüləri xilas etməkdə xüsusi mərdlik və cəsurluq göstərmişdi. Buna görə də Məmmədəli 1943-cü il oktyabrın 24-də "İgidliyə görə" medalı ilə təltif olundu.

İrəlidə Oder çayı dururdu. Əmr edilmişdi ki, nəyin bahasına olursa olsun, bu çay keçilməli, Sovet qoşunları üçün yol açılmalıdır. Məmmədəli bu döyüşdə öz əsgəri borcunu yerinə yetirdi. Qorxu bilmədən, başına yağan güllələrdən Sovet döyüşçüsünü və zabitini xilas etdi.

O, bu döyüşlərdə təkcə sanitar təlimatçısı kimi fəaliyyət göstərmişdi. 1945-ci ilin yanvar ayının 24-də Oder çayı sahillərindəki evlərdən birində baş serjant M.Məmmədov döyüş meydanında xilas etdiyi əsgər və zabitləri yerləşdirdikdən sonra faşistlər həmin yeri gülləbaran edirlər. Məmmədəli sərrast atəşləri ilə faşistlərin 40 əsgər və zabitini məhv edir.

Qəhrəmanın qardaşı oğlu Maarif Bayramov bu haqda Sputnik-ə danışır: "Əmimin döyüş yoldaşı Sədrəddin Kərimov kəndə, nənəmin yanına gəlmişdi. O deyirdi ki, "həmin döyüşdə biz yaralanmışdıq". Əmim həmin döyüşdə tək vuruşub, sonda özü də döyüşdə qəhrəmancasına həlak olur".

M.C.Məmmədov SSRİ Ali Soveti Rəyasət Heyyətinin 10 aprel 1945-ci il tarixli qərarına əsasən, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Qəhrəmanın məzarı Oder çayı yanındakı qəbirstanlıqda yerləşir.

Maarif Bayramov deyir: "Təəssüf ki, əmimdən yadigar heç nə qalmayıb. Bu balaca daxmadan başqa. Bacardığım qədər əmimin doğulub, boya- başa çatdığı bu həyəti, bu daxmanı qoruyub saxlamağa çalışıram. Əmimin heykəli əvvəlcə rayonun mərkəzində idi. Və bu, bizə qürur verirdi. Təəssüf ki, həmin heykəlin yeri dəyişdirildi".

Şahpəri Abbasova

AZƏRBAYCAN VETERANI

# “Tarixi saxtalaşdırmaq cinayətdir”

**Torpaq üçün ölən varsa, Vətəndir! - deyib aqillərimiz. Xalqımız Azərbaycan adlı vətəni öz qanıyla, canıyla, məhəbbətiylə yaşadıb. “Odlar yurdu” adı təkcə zəngin neft, qaz məskəni olduğu üçün verilməyib ölkəmizə, doğma torpağı övladları ürəyinin qanıyla, sevgisiylə isindirdiyinə, canlandırdığına görə verilib Vətənimizə! Vətən təhlükəylə qarşılaşanda oğullu-qızlı, qocalı-cavanlı ayağa qalxıb, hətta düş- mənlə qeyri-bərabər döyüşdə belə yağıya arxa çevirməyib, düşmənin sinəsinə yeriyib, qurbanlar versə də, əliyalın olsa da! Belə çarpışmalardan biri də erməni-sovet ordusu hərbçilərinin törətdikləri Xocalı soyqırımıdır. Ağır döyüş texnikalarına qarşı silahsız mülki əhali dayanmışdı. Onların könüllü və polis (o zaman milis) müdafiəçilərinin isə bir neçə avtomat, tapança kimi yüngül silahları vardı...**

Xocalı soyqırımı faciə olsa da xalqımızın ən parlaq mətinlik və qəhrəmanlıq səhifələrindən biridir.

Bu mücadilədə saxtakarlıq olmaz. Çünki hər bir yalan həqiqətin ortaya çıxmasına maneə, milli vətənpərvərlik ruhunun zəiflədilməsinə zəmindir. Çox təəssüflər olsun ki, bu hallara da rast gəlməkdəyik. Xocalı qətliamı - bu faciədə həm qəhrəmanlıq salnaməsi, həm də bəzi şəxslərin saxtakarlıqları reallıqdır. Tarixi hadisələri saxtalaşdırmaq, subyektiv məqsədlərlə suiistifadə yolverilməzdir. Özbəkistan Daxili İşlər orqanlarından çıxıb Azərbaycana gəlmiş, Xocalı şəhər Milis Bölməsinin ilk və son rəisi Sabir Məmmədovun əsasən bu mövzuya cavab verən “Tarixi saxtalaşdırmaq cinayətdir” adlı ikinci kitabı işıq üzü görüb. Burada müxtəlif illərdə dərc edilmiş, əsasən həm Xocalıya, həm də işğal olunmuş ərazilərimizə dair materiallar toplanmışdır. Qeyd etmək lazımdır ki, o döyüşlərin iştirakçıları özlərində özünümüdafiə, ədalət uğrunda mübarizəmizin, yaxın tariximizin gerçək səhifələrini daşıyırlar. Bu xatirələrin çapı, işıq üzü görməsi həqiqətin üzə çıxması, mübarizliyimizin, Vətən uğrunda şəhidliyimizin, qaziliyimizin nəsildən-nəsilə ötürülməsi və torpaq uğrunda, Vətən uğrunda çarpışmamızın salnaməsinin zənginləşməsidir.

Sabir Məmmədovun Özbəkistandan Azərbaycana gəlməsi də, Xocalı şəhər Milis Bölməsinə rəhbər təyin olunması da Vətən harayı ilə bağlıdır. O, nümunəvi xidmətinə görə nazir Məhəmməd Əsədovun əmriylə “Əla xidmətə görə", “Milis əlaçısı” döş nişanlarına, I dərəcəli məharət ustasına, Xocalının ərazi bütövlüyü və mülki sakinlərin mühafizə və müdafiəsinə görə Xocalı şəhər ZDS icraiyyə Komitəsinin fəxri fərmanlarına (1990-1992), Azərbaycan Veteranlar Təşkilatının “General Cəmşid Naxçıvanski”, “General Əliağa Şıxlinski” və “General Həzi Aslanov” yubiley medallarına və bir sıra digər təltiflərə layiq görülmüşdür. S.Məmmədov Qarabağ müharibəsi veteranı və “Qızıl qələm” media mükafatı laureatıdır.

Kitab ulu öndər Heydər Əliyevin erməni vandallarının Xocalıda törətdikləri soyqırımındakı qəddarlıqları barədə ifadələrlə başlayır: “Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı



tarixi bir cinayətdir”. Azərbaycan Prezidenti İlham Əliyevin sözlərində isə qədim ərazilərimizə köçürülmüş ermənilərin həmin vaxtdan bəri yerli əhaliyə - xalqımıza qarşı apardıqları təmizləmə və soyqırımı siyasəti əksini tapıb: “Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsidir”.

S.Məmmədov Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət” kampaniyasının beynəlxalq miqyasda bu faciənin tanıdılması, həqiqətlərə dünya ictimaiyyətinin diqqətinin cəlb edilməsi istiqamətində çox effektli və mühüm tədbir olduğunu bəyan etmək, hər kəsi bu aksiyaya cəlb etmək üçün “Leyla Əliyeva hər kəsi “Xocalıya ədalət” kampaniyasına qoşulmağa çağırır” məqaləsini ilk sırada vermişdir.

Xocalıda olan kütləvi qırğının nəticələri olduqca ürəkağrıdıcı və ermənilərin qeyri-insani xislətlərinin bariz nümunələrindən biridir. Həmin 25-dən 26-na keçən fevral gecəsi 613 nəfərdən artıq Xocalı sakini qətl edilmişdir. Onlardan 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocadır. 8 ailə tamamilə məhv edilmişdir. 27 ailənin yalnız bir üzvü qalıb. 56 insan işgəncə ilə öldürülüb. 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini, 230 ailə öz başçısını itirib, 487 adam şikəst edilib, onlardan 76-sı həddi-buluğa çatmayıb, 1275 nəfər girov götürülüb, 1165 nəfər girovluqdan azad edilib, 150 nəfər itkin düşüb. Xocalı sakinləri Azərbaycanın 48 rayonunda sığınacaq tapıb. 1990-cı ilin mayında Əsgəran rayon Daxili İşlər Şöbəsinin tabeliyində Xocalı Milis bölməsi yaradılandan sonra erməni quldurlarının azğınlığının qarşısı xeyli alınır. Artıq bölmə xocalılardan təşkil olunmuş 64 nəfərlik heyət toplamışdı. O vaxtlar gün ərzində Yerevandan Stepanakertə 32-40 reys “Yak-40” təyyarəsi gəlirdi. Bu təyyarələrdə silah-sursat daşınırdı. Xocalı Milis Bölməsi şöbə olduqdan sonra müdaxiləsi sayəsin də həmin reyslərin sayı gün ərzində 4-ə, sonra 1-ə, nəhayət həftədə 1-2 dəfəyə endirildi. Xocalı blokada da idi. Əlaqə ancaq helikopterlə yaradılırdı. Onu isə əldə etmək son dərəcə çətin idi. Polis rəisi (o zaman milis) 1992-ci il fevralın 13-də 300 nəfər dinc sakini “Mİ-26” vertolyotu ilə Xocalıdan Gəncəyə, oradan isə Ağdama gətirmişdi. Sabir Məmmədov Xocalı aeroportunun mərhum



rəisi Milli Qəhrəman Əlif Hacıyevlə birlikdə erməni separatizminin, soyqırımı təşkilatçı və icraçılarından, milli nifrət ideoloqlarından biri Zori Balayanı təyyarədən enməyə qoymamışdılar. Z.Balayan ermənilərin qabaqda gedən təxribatçılarından idi. İmperiya Mərkəzinin də himayə etdiyi bu irqçiyə qarşı həmin addım isə cəsarətli hərəkət idi. S.Məmmədov ərzaq qıtlığı və ağır blokada şəraitində 500 kiloqramdan çox çörəyi Ağdamdan vertolyotla Xocalıya Aqil Quliyevin komandiri olduğu 21 nəfər könüllülərə gətirmişdir. O, şöbənin şəxsi heyətilə 1992-1994-cü illərdə Ağdamın yüksəkliyi Yeddi xırman, Cinli, Fərrux kəndlərində, 1994-1996-cı illərdə isə Goranboy rayonunun Tapqaraqoyunlu, Zeyvə, Şəfəq, Aşağı və Yuxarı Ağcakənd kəndlərində işğalçılara qarşı döyüşlərdə olmuşdur.

“Şuşasız, Ağdamsız, ümumiyyətlə Qarabağsız Azərbaycan yoxdur!” devizi kitabın əsas leytmotivini təşkil edir. Kitabda işğalçı və barbar erməni hərbi və quldur dəstələrinə qarşı qəhrəmancasına mübarizəyə həsr olunmuş materiallarla yanaşı, Xocalıda onların yerli aborigen əhaliyə qarşı törətdikləri soyqırımının beynəlxalq, bəşəri cinayət olduğu barədə həm çıxışlar, həm də hüquqi normalara əsasən yazılmış materiallar yer alıb. Bundan başqa, tarixi saxtalaşdıranlara qarşı kəskin çıxışlarla diqqəti xüsusi olaraq cəlb edir. “Xocalı soyqırımı: cəfasını çəkənlər və səfasını sürənlər”, “Xocalını danışanlar yox, susanlar qoruyurdu” və digər məqalələr bu problemə həsr olunub. “Qarabağ həm dünənki, həm bugünkü, həm də sabahkı tariximizdir...” - deyən döyüşçünün sözlərində çox ciddi bir həqiqət vardır. Bir sözlə, kitab oxucularda kifayət qədər maraq doğuracaq, düşündürəcək cəlbedici materiallar təqdim edir.

Ataş CƏBRAYILOV

## Gəncə şəhər Veteranlar Təşkilatında 80 illik yubiley tədbiri keçirildi

Gəncə şəhər Veteranlar Təşkilatında Riyaziyyat üzrə fəlsəfə doktoru Zahid Abbasovun 80-illiyi ilə əlaqədar görüş keçirdi. Tədbiri şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov açaraq yubilyarı təbrik etdi. Görüşdə dosent Yunis Nurməmmədli, qızıl qələm mükafatı laureatı, professor Adil Ramazanov, İkinci Dünya müharibəsi veteranı Tofik Hüseyinov , Respublikanın xalq artisti Məmmədəli Balayev, Azərbaycan Yazıçılar birliyinin üzvü, şair, yazıçı Xasay Qərvəntli , tarixçi Asif Mahmudov və başqaları iştirak edirdi.



Böyük Vətən Müharibəsi veteranı Tofiq Hüseynov çıxışında yubliyarı təbrik edərək bildirdi ki, Zahid Abbasovun Riyaziyyat elmində göstərdiyi xidmətləri əvəz olunmazdır.

Daha sonra digər qonaqlar da çıxış edərək yubilyarı təbrik etdilər və öz ürək sözlərini çatdırdılar.

Yubliyar- Zahid Abbasov, onun xidmətlərini qiymətləndirdiklərinə görə Veteranlar Təşkilatının üzvlərinə öz dərin minnətdarlığını bildirdi.

Tədbirin sonunda Gəncə şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov yubilyara Respublika Veteranlar Təşkilatının təsis etdiyi “Veteran Həmrəyliyi” medalını təqdim etdi.



II Dünya müharibəsi 1 sentyabr 1939-cu ildə başlandı, 2 sentyabr 1945-ci ildə bitdi. Savaş 1418 gün davam etdi. 1945-ci ilin 23 aprelində Sovet qoşunları Berlinə girdi. Almaniyanın təslim olması haqda aktı general Vilhelm Keytel 7 mayda imzaladı.









# "Düşmənin hərbi texnikası üstün idi, bizimsə..."

**Niyaz Ağayev: "Geridə yalnız uşaqlar, qadınlar, qocalar və hərbiyə yararsız insanlar qalmışdı"**



1945-ci ilin 9 mayında faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın da on minlərlə oğul və qızı canından keçib, fədakarlıq, şücaət göstərib.

Onların arasında Ağayev Niyaz Məsim oğlu da olub. O, cəbhədə gedən ağır döyüşlərin canlı şahidlərindəndir. Şəxsiyyət vəsiqəsinə görə, 92 yaşı var. Orada göstərilir ki, 1924-cü ildə İsmayıllı rayonunun Mican kəndində anadan olub. Əslində isə 1919-cu ildə anadan olub.

Orta məktəbə gec gedib. Müharibə başlayanda isə 9-ci si nif şagirdi imiş. Həmin an indiki kimi xatirindədir. "Müharibə getdikcə şiddətlənirdi. Əli silah tutanlar cəbhəyə yollanırdılar. Geridə isə yalnız uşaqlar, qadınlar, qocalar və hərbiyə yararsız insanlar qalmışdı" — deyir.

Məktəbli olmasına baxmayaraq Niyaz Ağayev kəşfiyyat bölüyünə təyin olunur. O günləri xatırladıqca kövrəlir: "Bütün çətinliklərə baxmayaraq, inamımız vardı – qələbəyə, rəhbərə, silahdaşlarımıza və öz gücümüzə. Düşmən silah və texnika baxımından bizdən üstün idi, amma bizim ürəyimiz, inamımız daha üstün idi. Sovet əsgərində olan şücaət almanlarda yox idi".

Niyaz babaya İkinci Dünya müharibəsindən geriyə xatirələr qalıbNiyaz babanın medalları, fəxri fərmanlarıİndi ömrünün ahıl çağını yaşayan qəhrəman, dövlətin diqqət və qayğısından razılıqla danışır

Müharibədə göstərdiyi şücaətə görə, "İgidliyə görə" medalı ilə təltif olunub. Dövlət tərəfindən ona avtomobil də hədiyyə edilib.

Beləcə Niyaz babaya İkinci Dünya Müharibəsindən geriyə xatirələr, medallar, fəxri fərmanlar qalıb.

İlham Əhmədov

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti
Böyük Vətən Müharibəsi iştirakçısı
**Qadimova İrina İvanovnanın**
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Şəki Şəhər Veteranlar Təşkilatının kollektivi Böyük Vətən Müharibəsi iştirakçısı
**Bəliyar Camal oğlu Məmmədovun**
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Nizami Rayon Veteranlar Təşkilatının kollektivi professor
**Cəlal Cümşüdün**
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi**
**AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:*** *1701285981 verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012*** *440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*